# Qələbənin Baş Komandanı



**Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin 2021-ci il oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan qəsəbəsindəki çıxışının oyatdığı düşüncələr mənə bu misraları yazdırdı:**

***Ali Baş Komandan,***
***ali sərkərdə,***
***Həm canlı efirdə,***
***həm də səngərdə,***
***Ölkənin mətbuat fədaisiydi.***
***Təmkini, məntiqi, fəhmi yerində,***
***Mövqeyi, baxışı, zəhmi yerində –***
***Qarabağ bizimdir!***
***Azərbaycandır!***

Bizi viran qoyulmuş şəhərlərin, kəndlərin, dağıdılmış məzarların, ot basmış cığırların, daşları daşınmış hasarların, sınıq şüşələri divar dibinə tökülmüş pəncərələrin, qarğalar dənləyən boş gilizlərin, sacında nənələrin ruhu qovrulan ocaqların qınağından qurtaran Zəfər salnaməmiz – ikinci Qarabağ müharibəsi, Vətənin üzüağ müharibəsi... Suqovuşanda, Xudafərində, Qırxqız oylağında, Bazarbaşında, Turşsuda, İsa bulağında, Cıdır düzündə yaralı daşların ürək dağlayan ah-naləsi, ağlar bulaqların nisgil dolu hıçqırıqları düşmənin şərşivənindən, hay-həşirindən boğula-boğula müzəffər ordumuzun qələbə qədəmlərini gözləyirdi.

Hələ Lələtəpə döyüşlərində düşmənin başına od saçan, qartal kimi şığıyaraq qisas yerlərindən böyük Qələbəyə yol açan ordumuzun yolunu gözləyən doğma yurd yerlərimiz, məscidlərimiz və dini abidələrimiz öz xilasına susadıqca yırtıcı erməni vandallarının əməllərindən bezən torpağın bağrı səngər-səngər döyünürdü, döyüş meydanları lərzəyə gəlirdi. Haqlı olaraq ATƏT-in ölüvay missiyasına məhəl qoymayıb, üstəlik BMT qərarlarının icrasını cəsarətlə öz üzərinə götürən rəşadətli ordumuz öz mətin sərkərdəsi, Ali Baş Komandan İlham Əliyevin mahir döyüş taktikası ilə “Dəmir yumruq” əməliyyatına rəvac verdi, döyüş meydanlarında ölkə tarixinə, Vətən adına müqəddəs zəfər yazdı, cavanlı-qocalı bu səfərbərliyə, oğullu-qızlı bu saf birliyə zəmin yaratdı, barmağı silahın tətiyi üstə, üç rəngli bayrağı ürəyi üstə yürüyən əsgərlərimizin dağları titrədən çəkmə səsləri, buzları əridən od nəfəsləri zəfər hayqırtılarına yol açdı.

44 günlük Zəfər mənzərələri, qalibiyyət, hünər mənzərələri – bu, film deyil, bu, Qarabağda Vətən qovğasıydı, Vətən qalıydı. Şanlı müharibə ssenarisiydi, möhtəşəm Qələbə serialıydı!

2020-ci il 3 oktyabr tarixində müzəffər ordumuz misilsiz qəhrəmanlıq və fədakarlıq göstərərək şiddətli döyüşlər nəticəsində Talışı və Suqovuşanı işğaldan azad etdi. Talış kəndinin və Suqovuşan qəsəbəsinin yerləşdiyi ərazidə düşmənin çox böyük canlı qüvvəsi yerləşmişdi. Burada çox güclü istehkamlar qurulmuş, bir neçə müdafiə xətti təşkil edilmişdi. Müharibənin ilk günlərində strateji bir qəsəbənin işğaldan azad olunması ilk böyük uğur idi və bu uğur müharibənin gedişatı zamanı əsgərlərimizin döyüş ruhunun yüksəlməsində önəmli rol oynadı, böyük Zəfərin başlanğıcı oldu. Ümumiyyətlə deyə bilərik ki, Suqovuşan Qarabağ müharibəsinin əsas düyünü idi. Bu mühüm məntəqə düşməndən təmizləndikdən sonra Ağdərə və Ağdam istiqamətində Ermənistan ordusu uzun müddət duruş gətirə bilməyəcəkdi, Ağdərə və Ağdamın da azad edilməsindən sonra isə Xankəndiyə hücum üçün əlverişli şərait yaranacaqdı. Eyni zamanda Suqovuşan qəsəbəsinin bir əhəmiyyəti də ondadır ki, burada yerləşən su anbarı Sərsəng su anbarı ilə bərabər, Tərtər, Bərdə, Ağdam, Goranboy və digər rayonlara da su vermək gücünə malikdir.

Ərazinin azad olunması bölgədəki strateji yollara da nəzarətimizi təmin etdi və düşmənin canlı qüvvəsinin hərəkəti üçün, manevrləri üçün çox böyük problemlər və məhdudiyyət yaradıldı. Suqovuşandakı ağır məğlubiyyətdən sonra Ermənistan ordusu dərin mənəvi-psixoloji sarsıntı keçirdi, bu sarsıntı, bu qorxu oktyabrın 3-dən müharibənin son dəqiqələrinə qədər Ermənistan ordusunu tərk etmədi və bu vahimə erməni ordu sıralarında on mindən çox fərarinin olmasına gətirib çıxartdı. Ermənistanın keçmiş Prezidenti Serjik Sarkisyanın da adı erməni fərarilərin içində çəkilir. Bütün ömrü boyu cinayətkar, xain, satqın kimi tanınan bu adam fərari kimi də tanındı, indi onu Ermənistanda kütləvi surətdə lağa qoyurlar, ələ salırlar, ona nifrət edirlər...

Bölgəni elektrik enerjisi və su ilə təmin etmək üçün Suqovuşan qəsəbəsinin xüsusi əhəmiyyəti var. Hələ sovet dövründə Suqovuşan su anbarının yanında ulu öndər Heydər Əliyev tərəfindən iki su elektrik stansiyası inşa edilmişdi. Müharibə zamanı düşmən bu stansiyaları da dağıtmışdır. Bu il “Suqovuşan-1” və “Suqovuşan-2” su elektrik stansiyalarının bərpası ilə bağlı mühüm işlər görülməyə başlanmış və artıq bu stansiyaların işlək vəziyyəti təmin olunmuşdur.

Hazırda Suqovuşan su anbarından istifadə edilərək 30 il ərzində ilk dəfə olaraq Tərtər və digər rayonlara su verilməsi işi yerinə yetirildi. Bu günə qədər suvarılmayan, yaxud da az suvarılan torpaqlara bu qəsəbənin azad edilməsi nəticəsində su verilmişdir və indi ərazidəki su kanallarında təmir işləri gedir. Bizim azad edilmiş torpaqlarda – Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında mövcud olan su ehtiyatlarının səmərəli şəkildə istifadəsi ilə bağlı konkret addımlar atılır və çox ciddi proqram icra edilməkdədir.

Təbii ki, İkinci Qarabağ müharibəsində – Vətənin üzüağ müharibəsində əldə etdiyimiz uğurları mənfur qonşularımız hələ də həzm edə bilmir, hələ də revanşist hisslərlə yaşayanlar var. Ermənistanda yaşayanlar bilməlidir ki, revanşizm yolverilməzdir və bu cür cəhdlərin qarşısı sərt alınacaq, onların bütün niyyətləri boşa çıxacaq, onlara adekvat cavablar veriləcəkdir.

Tarix sübut etdi ki, Azərbaycan Prezidentinin yeritdiyi müstəqil siyasət ölkəmizi həm regionda, həm də dünyada söz sahibinə çevirdi və ölkəmizin mövqeyinin möhkəmlənməsi münaqişə ərtafında yaranan vəziyyətin məhz bizim xeyrimizə dəyişməsinə imkan yaratdı. Şanlı Azərbaycan Ordusu Ali Baş Komandanın tapşırığını qətiyyətlə yerinə yetirdi, üçrəngli bayrağımızın Qarabağın döyünən ürəyində – Şuşada dalğalanması hər birimizin qürur yerimiz oldu.

***Ramiz QUSARÇAYLI***